https://doi.org/10.36719/2663-4619/108/20-25

**Aytac Zeynalova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
aytaczeynalova747@gmail.com

# Çağdaş şeirimiz və Məhəmməd Füzuli

## Xülasə

Məhəmməd Füzulinin fikir və sənət dünyası yeni məzmunu və bədii-üslubi tapıntıları ilə Azərbaycan türkcəsindəki şeirin fəaliyyət proqramını təsdiqləmiş, özündən sonra gələn nəsillər üçün istər forma, itərsə də ideya baxımından örnək olmuşdir. Məqalədə şeirimizin Füzulidən sonrakı mərhələsinə, xüsusilə XX əsrdə sosializm realizminin estetikasından kənarda yazıb yaratmış, həm də yaradıcılığı ilə ötürücü funksiyanı yerinə yetirmiş qəzəlxan şair Əliağa Vahidin fəaliyyətinə qısa nəzər yetirilmişdir. Füzuli irsinin təsiri çağdaş şeirdə üç istiqamətdə özünü göstərməkdədir ki, bunlar neoklassik şeirin təzahürləri kimi dəyərləndirilə bilər.

Birinci xətt daha mühafizəkar fəaliyyət hesab edilir ki, burada həm forma, həm də məzmun etibarilə Füzuli dəsti-xətti qorunub saxlanılır.

İkinci istiqamətdə formaca ənənəvi, məzmun və motiv etibarilə yeni poetik nümunələr diqqəti cəlb edir.

Üçüncü xəttdə isə həm forma, həm də məzmun etibarilə yenilənmiş, lakin Füzuli ruhunu özündə saxlayan yaradıcı şairlərin əsərləri yer almaqdadır. Aparılan paralellər Füzuli sənətinin zahiri və daxili potensialını bir daha üzə çıxararaq çağdaş şeirdə bu poetik irsdən ideya-mövzu qaynağı kimi bəhrələnmənin daha aktual olmasını ortaya çıxarmışdır ki, buna daha çox assosiativ poeziyada rast gəlmək mümkündür.

***Açar sözlər:*** *Füzuli, Vahid, qəzəl, neoklassika, çağdaş, irfan, poetika*

**Aytaj Zeynalova**
Azerbaijan University of Languages
Doctor of Philosophy in Philology
aytaczeynalova747@gmail.com

# Our Contemporary Poetry and Mahammad Fuzuli

## Abstract

Like the Sun of Azerbaijani poetry, Mahammad Fuzuli shines in our poetry, which was and will be created after him. The article provides a brief look at the post-Fuzuli stage of our poem, especially the activity of Aliaga Vahid, a ghazal master poet who wrote and created in the XX century outside the aesthetics of socialism realism, and also performed a transmitting function with his creativity. The influence of Fuzuli heritage is manifested in contemporary poetry in three directions, which can be regarded as manifestations of neoclassical poetry.

The first line is considered to be a more conservative activity, in which both the form and content of Fuzuli are preserved.

In the second direction, traditional in form, new poetic examples in content and motive attract attention.

The third line includes the creativity of creative poets who have been updated both in form and content, however retain the spirit of Fuzuli. The parallels carried out once again revealed the external and internal potential of Fuzuli art and revealed that the use of this poetic heritage as an idea-subject source in contemporary poetry is more relevant, which can be found more often in associative poetry**.**

***Keywords:*** *Fuzuli, Vahid, ghazal, neoclassical, contemporary, wisdom, poetics*

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Üzərindən 530 il keçməsinə baxmayaraq, Şərqin mütəfəkkir şairlərindən hesab edilən, əruzda nadir sənət inciləri yaratmış böyük Azərbaycan şairi Məhəmməd Füzuli bu gün də oxunur, dinlənilir, sevilir, maraqlısı odur ki, Füzuli bu gün də söz sənətinə diqtə edir. Füzulinin fikir və sənət dünyası yeni məzmunu və bədii-üslubi tapıntıları ilə Azərbaycan türkcəsindəki şeirin fəaliyyət proqramını təsdiqləmiş, özündən sonra gələn nəsillər üçün istər forma, itərsə də ideya baxımından örnək olmuşdir. Mövlana Cəmaləddin Ruminin "Məsnəvi"sinin şərhində deyilir: "Kəlam sahibi olan Allah buludun qulağına bir sirr açdı, buludun gözündən su tulumu kimi yaşlar töküldü. Gülün qulağına bir sirr açdı, onu rəng və rayihə səltənəti ilə gözəlləşirdi. Daşa bir sirr açdı, onu mədən içində əqiq etdi. İnsan vücuduna bir sirr verdi. O, sirri qoruyanları sonsuzluğa yüksəltdi. İlahi aləmdən ilham alan bu vücudlar cisimdən çıxaraq Haqq ilə yaxınlığın sirrinə vardı" (Topbaş, 2008, s. 5). Şübhə yoxdur ki, bu sirlər müxtəlif təcəllalar şəklində özünü göstərən bir məhəbbət sirridir. Füzuli sənətinin əbədiliyinin sirri də bu məhəbbətin cazibəsi ilə dəyərləndirilə bilər.

**Tədqiqat**

Dahi şairin yaradıcılığında irrasional idraki təsəvvürlərdən, kosmoqoniya hadisələrindən tutmuş, eşq yolçuluğunun batini və zahiri əlamətlərinəcən, həyat həqiqətlərindən başlamış dünya elmlərinin izahına kimi müxtəlif mövzuların bədii həlli ilə qarşılaşırıq. Bütün bunlarla bərabər bu əsərlər struktur baxımından da dolğun, cilalı və rəngarəngdir. Şair poetik kateqoriya və fiqurların zənginliyinə görə də Azərbaycan şeirinin ucalığında qərar tutmuşdur. Maraqlısı ondadır ki, şairin iri həcmli əsərlərinə çox az sayda ithaflar yazılmışdır ki, bu da onun əsərlərinin məzmun çəkisi, məna yükü ilə əlaqədardır. Amma buna baxmayaraq, 530 ilin pəncərəsindən boylanıb nəzər salsaq, oradan bir çox şairlərin yaradıcılıq irsindən bir Füzuli ətrini hiss etmək mümkündür. Füzuli ənənəsinə sadiq qalmış sənətkarlardan Saib Təbrizi, Qövsi Təbrizi, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Əbülqasim Nəbati, Mirzə Ələkbər Sabir, Hüseyn Cavidin, XIX və XX əsrin şairlər ordusunun, xüsusilə proletkultçu ideologiyanın tələblərindən kənara çıxaraq nəfis şeirlər yazmış, XX əsrin qəzəlxan-şairi Əliağa Vahidin adını çəkmək mümkündür. Əlbəttə ki, sovet dövründə Süleyman Rüstəm, Səməd Vurğun, Bəxtiyar Vahabzadə və b.-nın da yaradıcılığında qəzəl nümunələrinə rast gəlmək mümkündür ki, bunların bir çoxu gözəl poetik örnəklər kimi Azərbaycan şeir tarixidə özünə yer almışdır. Hətta Ə. Vahid ona edilən tənələrin cavabı olaraq həm dövrün faciəsinə, bununla bərabər isə divan şeiri ənənələrinin mahiyyətinə işarə edərək deyirdi:

Xakəstəri-eşqəm mənə təhqir ilə baxma,
Min gənc çıxar zahirə viranəliyimdən (Vahid, 2005, s. 198).

Füzuli əsərləri daha çox 60-cı illərdən sonrakı dövrlərdə yazıb yaradan şairlərin yaradıcılığının ideya qaynağı kimi diqqəti cəlb edir. Gözəl şairimiz Fikrət Qocanın məşhur "Sənə olan eşqimi sənə də alçaltmaram" ifadəsi böyük bir konsepsiyanın bir misra ilə ifadəsidir. Belə misralar böyük Füzulinin "Leyli və Məcnun" əsərinin leytmotivi ilə səsləşir ki, bu da vəhdət aləmi ilə kəsrət aləminin, məcazi məhəbbətlə həqiqi məhəbbətin dialoqu kimi oxucunu cəlb edir. Bu misralar dahi şairin:

Diyari-eşqdə seyli-sitəmdən oldu xərab,
Fəzayi-eşqdə abad gördüyün könlüm (Füzuli, 2005, s. 167)
kimi kanonlaşmış ifadələrinin XX əsrin poetik təfəkkürünə uyğun bir təqdimatıdır.

Nəinki poeziyanın, elə həmin illərdə yazılmış bədii nəsrin semantik yükündə də Füzuli ağırlığını görmək olar. Əsasən 60-cıların, məsələn, Anarın, Elçinin, Maqsud İbrahimbəyovun və başqalarının yaradıcılığında duyulan Füzuli ruhu təqdim edilmiş obrazların duyğularının və idrakının dərinliklərinə işıq salır. Müstəqillik dövründə ərsəyə gəlmiş bir çox nəsr əsərlərində də bu ənənə hiss olunur. Nümunə üçün, Kamal Abdullanın "Sehrbazlar dərəsi" adlanan əsərini göstərmək mümkündür ki, burada hadisələrin təriqət-dərviş paradiqması ilə yanaşı, bir də cəllad Məmmədqulu hekayəti də vardır ki, zahirdə lirik xətt kimi görünən bu süjetin daxilində dərin bir ictimai mahiyyət, mühüm bir həqiqət dayanır. Bu xətt sanki böyük Füzulinin "Şikayətnamə" əsərindəki həssas ideyaya söykənərək idarəetmənin dəyişməz və dəmir "qanunlar"ını müdafiə edir. Füzuli deyir: "Və hədisi-səhihdir ki: "Əssultanü zillüllahi" və ondan istiğna xətadır Sultan Allahın kölgəsidir.

Rütbələrdə mürsəl Peyğəmbər və Allaha yaxın mələklərdən sonra ən yüksək Rütbə sultanındır" (Füzuli, 1992, s. 5).

Müasir şeirdə isə Füzuli irsi üç istiqamətdə özünü göstərməkdədir. Birinci xətdə forma və məzmunca mühafizəkar mövqe sərgiləyən şeirlər yer alır ki, burada Füzuli dəsti-xətti aparıcıdır. İkinci xətdə formaca ənənəvi, məzmunca yeni olan şeirlərdir ki, bunlar özünün ictimai-mənəvi, fəlsəfi-psixoloji məzmunu ilə diqqəti cəlb edir. Üçüncü xətdə isə şeirlərin forma və məzmun xüsusiyyətlərində xeyli dəyişikliklər və yenilənmələr mövcuddur. Birinci istiqamətdə yaşlı nəsil hesab olunan Hacı Mail, Ələmdar Mahir, Talib, Hacı Akif, Şahin Fazil, gənc şairlərdən İlqar Fəhmi, Arif Buzovnalı, daha gənclərdən Kamal Hüseynzadə, Naim və b. adlarını sadalamaq olar. Üçüncü istiqamət çağdaş şeir üçün daha cəlbedici səslənən xətdir ki, özünü Ramiz Rövşən, Vaqif Səmədoğlu, Fikrət Qoca, Salam Sarvan, Kamal Abdulla, Aqşin Yenisey, Aqşin Evrən və bir çoxlarının yaradıcılığında görülməkdədir. Bu nümunələrə assosiativ poeziyada rast gəlinir ki, burada forma və məzmun tam yenilənmişsə də, məzmun, fəlsəfi ruh bəzən implissiv, bəzən aşkar şəkildə Füzuli ruhu ilə həmahəng səslənir. Sadaladığımız hər iki xəttin nümayəndələri içərisində müəyyən qisim şairlər ikinci xəttə də aid edilə bilər. Çünki müasir şeirdə əruzun biçimlərindən uzaqlaşmış, lakin Füzuli qəzəlinin fəlsəfi-romantik məzmununu və ahəngini qoruyub saxlayan bir çox poeziya nümunələri ilə qarşılaşmaq mümkündür. Günümüzdə isə yetişməkdə olan xeyli sayda gənc şairlər vardır ki, onlardan bir qismi dərin qatlara enərək qəzəl estetikası daxilində yaradıcı fəaliyyətlə məşğuldurlar. Digər qismi isə qəzəlin poetik qəliblərindən və vasitələrdən istifadə etməklə əruz vəznli əsərlər yaradaraq daha çox məcazi məhəbbətin tərənnümünə yer verirlər (Qurani-Kərim, 1991).

Maraqlı olan budur ki, klassiklərin, xüsusən də Nizami, Füzuli kimi görkəmli söz və sənət sahiblərinin söylədiyi fikirlər özlərindən sonra hikmətlər şəklində təsdiqini tapmış və möhürlənmiş ifadələr kimi bir çox şairlərin, söz xiridarlarının düşüncələrində yer almışdır:

Qəd ənarəl-eşqə-lil-üşşaqi minhacəl hüda!
Saliki-rahi-həqiqət eşqə eylər iqtida (Füzuli, 2005, s. 7).

Füzuli şeirindəki mövzu əlvanlığı irfani siqlətinə görə əvəzsizdir. Bu səbəbdən müasir şairlər həmin ideyaları öz qəzəllərində əks etdirirlər ki, bunu divan şeirinin mühafizəsinə yönəlmiş bir addım kimi də dəyərləndirmək olar. Dahi şair yuxarıdakı nümunədə eşqin aşiqlərin qəlbinə daxil olan bir hidayət nuru, batini işıq olduğunu söyləyir. Elə bir nur ki, o, əsil saliklərin yolunu işıqlandıraraq onlara həqiqi rəhbər kimi istiqamət verir. Əsil aşiqlər müstədir yolda seyrə məşğul olurlar. Bəzi şairlər metafizik təfəkkürün bədii ifadəsi zamanı öz düşüncələrini sanki bilərəkdən implissiv şəkildə təqdim edirlər, onların şərhi və təhlili zamanı ciddi anlaşılmazlıqlar yaranır. Amma Füzulidə belə deyildir, o, hətta müxtəlif ezoterik müşahidələrin təsvirində belə oxucunu düşünür:

Mahi-növdür, yoxsa sən qıldıqda seyri-asiman,
Qaldırıb barmaq gətirmiş asiman iman sana? (Füzuli, 2005, s. 23)

"Bəllidir ki, Məhəmməd Peyğəmbər (s.) nəinki müsəlmanların, nəinki yer üzündə yaşayan insanların, eyni zamanda bütün aləmlərin və bütün aləmlərdə xəlq olunmuşların, hətta mələklərin belə peyğəmbəri idi. Allahın onu meraca aparmağının müxtəlif səbəbləri var idi. Bu səbəblərdən biri də o idi ki, bütün mələklər ona beyət edərək imanlarını təzələsinlər. "Mahi-növ" qövsvari şəkildə olan yeni çıxmış aydır. Üç günlüyə qədər aya hilal (aypara) deyərlər. Peyğəmbərin (s.) meracı ayın əvvəllərinə, ayın hilal şəklində olduğu gecələrə təsadüf edir. Beytdə Peyğəmbərə (s.) xitabən deyilir ki, ya Peğəmbər (s.), sən meraca gedən gecə asimandakı təzə doğulmuş ay idi, yoxsa asiman barmağını qaldırıb sənə iman gətirdiyini bildirirdi?" (Mahir, 2012, s. 26)

Qıldı zülfün tək pərişan halimi xalin sənin,
Bir gün, ey bidərd, sormazsan: nədir halin sənin? (Füzuli, 2005, s. 231)

Əlbəttə ki, belə mövzular Füzuli üçün də yeni deyildi. Böyük Nizaminin, Nəsiminin, Xətayinin yaradıcılığından oxucuya yaxşı tanış olan misralar vardır ki, onların Füzuli təfəkküründəki imitasiyası da şeir tarixində əvəzsiz xəzinə kimi mühafizə edilir. Bu ideyalar özündən sonra gələn söz sərraflarının da diqqətini cəlb etmiş, gözəl poetik örnəklər ərsəyə gətirmişlər. XIX əsrin sonu-

XX əsrin əvvəllərində yaşamış şairlərinin söz dünyasına nəzər salsaq, maraqlı mənzərə ilə qarşılaşmış oluruq:

Edibdir nöqteyi-xalini mərkəz qəlbi – üşşaqə
Mədarından xilaf etməz, könül pərgarə mayildir
*(Mirzə Həsib Qüdsi)* (Rəmzi, 1981, s. 21).

Qaşın taqinə taqindən əyilmiş bircə mişkin tel,
Məgər gülzari-cənnətdir bitirmiş bir giyəh əyri?
*(Mirzə Abbas Şahin)* (Rəmzi, 1981, s. 34)

Yuxarıdakı misraların çağdaş qəzəlxan şairlərin qəzəlləri ię müqayisəsi də maraqlı görünür. Müasirimiz Talib də sələfinin yolu ilə gedərək sirli-soraqlı dünyanın hikmət dolu seyrinə belə çıxır:

Qaşın mehrabinə səcdə, gətirmiş aşiqi vəcdə,
Odur ki, aşiqani-Həq sənə çün iqtida eylər.
Ağ üzündə qara xal nöqteyi-bismillahdır,
Yazıb eşqin qələmi qarə, bəyaz üstündən.

Dairənin burada göstərilən semantik məzmununa "kosmik yumurta" versiyasını da daxil etmək olar. Qədim insanların kosmoloji təsəvvürlərini naxış-kodlar kimi də dəyərləndirə bilərik. Mənbələrə əsasən deyə bilərik ki, bütün materiya və bütün enerji müəyyən anda bir nöqtədə cəm olmuşdur. Həmin nöqtə böyük cazibə qüvvəsinin təsiri altında sıfır həcmə malik olmuşdur. Həmin nöqtənin partlayışı tarixdə və elmdə Böyük Partlayış nəzəriyyəsi adını alıb ki, bu barədə divan ədəbiyyatının ünlü nümayəndələrindən Nizami, Füzuli də xeyli maraqlı düşüncələri ilə yadda qalmışlar. Şübhəsiz, bu mütəfəkkir-şairlər elmə sonradan bəlli olan bir çox sirləri ilahiyyat elmlərinin məzmunundan əldə etmilər.

Nəsimi söyləyir:

Zilli sanidir saçın, innə ileyhə rəciun,
Qul kəfanın aftabı xoş məanı göstərir (Nəsimi, 2004, s. 121).

Fəlsəfə və irfanda "müstədir hərəkətlər" anlayışı var ki, ilahi məzmunlu əsərlərdə də bu yanaşmadan istifadə edilir. Yəni burada cismsiz vücudla ətrafı seyr etməsinə, "innə ileyhə raciun" məqsədinə müraciət edilir. Hətta mədəniyyətşünaslıqda mədəni dairələr nəziyyəsi də vardır ki, onlar mədəniyyətin bir nöqtədən yarandığını təsdiq edirlər. Bu gün elmi ədəbiyyatda daha çox "post irfan" ifadəsi ilə qarşılaşırıq ki, burada "laməkan və lazəmanlıq məsələsi tamamilə mənsux, yəni kənara qoyulmuşdur. "Post irfan" fənafillah deyil, şahid axtarışındadır" (Aruz, 2017).

Çağdaş şeirdə Füzuli dəsti-xətti bu şeirlərin təkcə ideyasını təşkil etmir. Müasir şairlərin çoxu Şərq poetikasının incəliklərinə daha çox divan şeiri vasitəsilə yiyələnirlər. Yaradıcılığında Füzuli təsiri hiss olunan, neoklassik əruzun hər üç istiqamətində yazıb yaradan İlqar Fəhminin fəaliyyəti sənət keyfiyyətlərinə görə ən çox seçilən və oxunulan poetik nümunələrdir. Məlum poetik qəliblərə novatorcasına yanaşmış şairin şeirlərinin musiqi-ritmik duyumu da diqqəti cəlb edir:

Vaxt var idi birgə idik, sevgilim, mən və dəniz
İndi yox heyf ol dilara, bir dənizdir, bir də mən (Fəhmi, 2022).

Hacı Akif adlı şairin yaradıcılığı da bu cəhətdən rəngarəngliyi ilə diqqəti cəlb edir. Şair yaradıcılığında Şərq poetikasının sütunlarından bəlağət və fəsahət kimi poetik kateqoriyalara aid olan maraqlı fiqurlar yaratmağa müvəffəq olmuşdur ki, burada birbaşa Füzuli təsiri hiss olunur:

Nə xoş ki olmadım sultan, gedə vicdan qalam nalan,
Tutum hər bir kəsə nöqsan, atım böhtan qurum divan.
(Hacı Akif, 2023, s. 238).

Yuxarıdakı nümunədə şair "səc-müvazinə"dən bəhrələnərək tarazlı səc yaratmış və bunula bərabər "ləff və nəşr" poetik fiqruna da müraciət etmişdir. Başqa bir nümunədə:

Gələ üstümə nə qədər bəla, demərəm xeyir, deyərəm bəla,
Belə səpt olub yazılan qədər, çəkərəm gələ nə qədər cəfa (Hacı Akif, 2023, s. 21).

Sonuncu nümunədə müəllif "təqid", "təqsim", "təzad", "cinas", "touzi" və s. bəla və qədər sözləri cinas olub fərqli məzmunlar bildirir. Bu ifadələrin ətrafında isə müəllif digər vasitələrdən də istifadə etmişdir ki, nəticədə çox melodik bir deyim alınmışdır. Hacının əsərləri janr və forma cəhətdən də rəngarəngdir. O, əruz vəznində qəzəl, qəsidə, müxəmməs, mürəbbe, müsəddəs, tərcibənd, məsnəvi,

mərsiyə, nəsihətnamə, səfərnamə, şikayətnamə, təxmis və s. janr və formalarda nümunələr yaratmaqla yanaşı, ara-sıra heca vəzninə də müraciət etmişdir. Hacı Akif klassik şeir formalarına novatorcasına yanaşaraq, maraqlı hilyə, məqtəl və minacatlar, rəvan bəhri-təvillər, vaqinamə, ibrətnamə, vücudnamə və s. poetik örnəklər yaratmışdır. Təbii ki, Yaradanın insan ruhuna bəxş etdiyi təbilham danılmaz faktordur. Lakin klassik xəzinəmizin dəyərlərinə böyük sevgi və məsuliyyətlə yanaşmaq birbaşa divan mədəniyyətinə, xüsusilə Füzuli irsinə varislik kimi dəyərləndirilə bilər (Nəsimi, 2004).

Yeniliklərlə dolu olan ötən əsrin sonu və XXI ərin əvvəllərindən şeirdə – sənətdə olan yeni meyil və təmayüllər çağdaş şeirin maraqlı mənzərəsini yaratmaqdadır. Ramiz Rövşənin, Vaqif Səmədoğlunun, Vaqif Bayatlı Odər kimi bir çox müəlliflərin əsərlərinə hakim olan fəlsəfi ruh bir çox nöqtələrdə onları dahi sələfləri ilə birləşdirmişdir. R. Rövşən “Dərd” şeirində söyləyir:

Nə uzundur dərdin ipi,
Dolanır dörd bir tərəfi.
Dünyanın dərdli tərəfi
Dərdsiz tərəfini çəkir.

Dünyadan bezmir yenə də,
Şükür deyib bu günə də,
Adam lap öz dərdini də
Sevinə-sevinə çəkir (Ramiz, 2013).

Təbii ki, buradakı dərd faciə konsepsiyası deyil, vəziyyətə Vaqifsayağı yanaşmaqdır. Vaqif “Toy-bayramdır bu dünyanın əzabı, Ağlı olan ona gətirər tabı”, – söyləyərək böyük Füzulinin qəm konsepsiyasından bəhrələnmişdir. Akademik Nizami Cəfərov yazır: “Vaqif düşüncə tərzi Füzuliyə oppozisiya təşkil etməklə yanaşı, həm də onun davamıdır... XX əsrdə Əliağa Vahid məhz Vaqif düşüncə tərzinin deformativ təsirinə məruz qalmış Füzuli düşüncə tərzinin ekzotikasıdır” (Zeynalova, 2011, s. 135).

Ali gözəllik daşıyıcısı olan söz şairlərin yaradıcılığında insanı hər zaman mənəvi-ruhani inkişafa, daxili nurlanmaya yönəldir. Füzulinin qəmi o qədər əzəmətli səslənir ki, şeir qoşan hər kəs qəlbinin simlərini orada kökləyə bilmişdir.

Degildi böylə, dəmində bir əhli-işrət idi,
Bu qanlar içməyə mötad gördüyün könlüm (Füzuli, 2005, s. 167).
Eşqdən canımda bir pünhan məraz var, ey həkim!
Xəlqə pünhan dərdim izhar etmə zinhar, ey həkim! (Füzuli, 2005, s. 162)

Azərbaycanın dekadent şairlərindən olan Vaqif Səmədoğlunun aşağıdakı misraları yada düşür:

Günaha batmağım gəlib, ay Allah
Cəsarət dəmidir, saxlama məni.
Sənə inamdan da gözəl bir qız var,
Xəyanət dəmidir, saxlama məni (Səmədoğlu, 2014).

Bu misralarda ənənə elə maraqlı şəkildə inkar edilmişdir ki, inkarla təsdiq harmoniya içərisində birləşə bilmişdir. Böyük Füzuli söyləyir:

Yarəb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni (Füzuli, 2005, s. 195).

Dahi şairin məşhur qəzəlinə xas olan batini duyum, bəla ilə aşinalıq bu misraların hər sözündən boy göstərir. Maddi həvəsə qarşı inkarçı ruh Vaqif Səmədoğlunun poeziyasında bir arxetipə çevrilərək Azərbaycanın fikir tarixini sanki yenidən vərəqləmişdir.

## Nəticə

Füzuli və çağdaş şeirimiz əsasında apardığımız paralellər göstərir ki, Füzuli irsi daha çox iki yolla poeziyaya təsir göstərməkdədir. Bunlardan birincisi birbaşa Füzuli dəsti-xətti ilə yazmaq, ikincisi isə bu poetik irsdən ideya-mövzu qaynağı kimi bəhrələnmək olmuşdur ki, buna daha çox assosiativ poeziyanı göstərmək mümkündür. Digər tərəfdən isə çağdaş ədəbi proseslər ədəbiyyatımızda modernizmin, postmodernizmin estetik təbiətinə uyğun şəkildə yenilənməkdədir. İstər

ənənənin inkarı, şüur axını, ekzistensial tənhalıq olsun, istərsə də inkarın inkarı olsun, hər bir halda ədəbiyyatda sənətin mənşəyinə qayıdış hiss edilməkdədir. Təfəkkür insan şüurunun ümumiləşmiş və vasitəli inkasından ibarət idrak prosesi olduğundan, onun alt qatı daha sürətli işləyir. Elə bu səbəbdən də şairin misralarını oxuyarkən ənənə və ona münasibətin mahiyyəti daha çox assosiasiya olunur. Zənnimizcə, hansı ədəbi cərəyana, hansı poetik formaya aid olmasından asılı olmayaraq, çağdaş şeirdə düşündürücü fəlsəfi-psixoloji mühakimə, ictimai-əxlaqi düşüncə, intuitiv duyum varsa, orada bir Füzuli yaşamaqdadır.

## Ədəbiyyat

1. Aruz, S. (2017). *Post irfan, ya müasir irfan nəzəriyyəsi.* https://edebiyyatqazeti.az
2. Bünyadov, Z., Məmmədəliyev, V. (tərcümə ed.). (1991). *Qurani-Kərim*. Azərnəşr.
3. Fəhmi, İ. (2022). *Qəzəllər.* https://1001info.az. ilqar-fehmi-qezeller-
4. Füzuli, M. (1992). *Şikayətnamə.* http://web.anl.az
5. Füzuli, M. (2005). *Seçilmiş əsərləri*. I cild. Şərq-Qərb.
6. Hacı Akif. (2023). *Haqqın izi ilə*. Elm və təhsil.
7. Mahir, H. Ə. (2012). *Füzuli qəzəllərinin şərhi.* I cild. Elm və təhsil.
8. Nəsimi, İ. (2004). *Seçilmiş əsərləri*. II cild. Lider.
9. Rəmzi, C. (1981). *Deyilən söz yadigardır*. Yazıçı.
10. Ramiz, R. (2013). *Poeziya.* https://kayzen.az/blog/poeziya/13359
11. Səmədoğlu, V. (2014). *Günaha batnağım gəlir, ay Allah*. https://qafqazinfo.az/gundem-12/
12. Topbaş, O. N. (2008). *Könül bağçasından məhəbbətdəki sirr*. İpək yolu.
13. Vahid, Ə. (2005). *Əsərləri*. http://anl.az/el/
14. Zeynalova, A. (2011). *Əliağa Vahidin poetik irsi.* Elm və təhsil.

Daxil oldu: 01.08.2024
Baxışa göndərildi: 05.09.2024
Təsdiq edildi: 17.10.2024
Çap olundu: 20.11.2024